# S.S.AXUNDOVUN YARADICILIĞININ SOVET DÖVRÜ : "LAÇIN YUVASI"

Azərbaycan realist nəsrinin böyük nümayəndələrindən olan maarifpərvər yazıçı Süleyman Sani Axundov 40 illik yaradıcılıq yolu keçmişdir. Süleyman Sani Rzaqulu bəy oğlu Axundov 1875-ci il oktyabr ayının 21-də Şuşa şəhərində bəy ailəsində doğulmuşdur. Hələ körpə ikən atasız qalan Süleymanın təlim-tərbiyəsi ilə bilavasitə dayısı, görkəmli maarif xadimi Səfərəli bəy Vəlibəyov (1861-1902) məşğul olmuşdur. Süleyman Sani 1885-ci ildə Qori müəllimlər seminariyasına daxil olmuş, burada milli, klassik rus və dünya ədəbiyyatı ilə dərindən tanışlıq onun dünyagörüşünə faydalı təsir göstərmişdir.

Süleyman Sani Axundov XX əsr Azərbaycan ədəbiyyatında görkəmli yer tutan klassiklərdən biri olmuşdur. Böyük drammaturq M.F. Axundovun yaratdığı realist ədəbi məktəb zəminində yetişən Süleyman Sani, ədəbiyyatımızı yeni məzmun, yeni forma ilə zənginləşdirmişdi. O, ictimai-bədii fikir tariximizdə gözəl hekayə ustası, görkəmli dramaturq, komedioqraf, xalq müəllimi, maarif və mədəniyyət xadimi kimi tanınmışdır.

XX əsr uşaq ədəbiyyatının inkişafında Süleyman Saninin böyük xidməti vardır. Onun "Qorxulu nağıllar" ı uşaq ədəbiyyatımıza forma, məzmun və üslub etibarı ilə yenilik gətirmişdir. "Qaraçı qız" ədibin nəsr yaradıcılığının şah əsəridir. Yazıçı "Qaraçı qız"ın simasında ədəbiyyatımızda ilk dəfə olaraq zəhmətkeş ailəsindən olan uşağın bitkin, çoxtəsirli, unudulmaz obrazını yaratmış, onda bəşəri hisslər, nəcib arzular təcəssüm etdirmişdir. Bu əsər təkcə onun müəllifinin deyil, XX əsr azəri ədəbiyyatının böyük nailiyyətidir.

Oktyabr inqilabının qələbəsi və Azərbaycanda Sovet hakimiyyətinin qurulması ilə əlaqədar olaraq Süleyman Saninin bədii yaradıcılığı yeni yüksəliş mərhələsinə qalxır. O, Azərbaycan sovet drammaturgiyasında ilk dramın (Laçın yuvası-1921) müəllifi olduğu kimi, inqilabi mövzulu pyeslərin (Çərxi-fələk-1921, Qaranlıqdan işığa-1921), realist faciə (Eşq və intiqam- 1922) və komediya (Molla Nəsrəddin Bakıda-1921, Şahsənəm və Gülpəri-1921, Bir eşqin nəticəsi-1922) janrının ilk nümunələrini də yaratdı.

Süleyman Sani Axundov Azərbaycan sovet ədəbiyyatında inqilabi drammaturgiyanın banisidir. O, inqilabi pafoslu əsərlərində sinfi mübarizəninin xarakterinə, dünyagörüşünə güclü təsir etdiyini göstərmişdir.

Ədib, insanı cəmiyyətdən, onun inkişaf qanunlarından təcrid edən, ədəbiyyatı forma və məzmun cəhətdən məhdudlaşdıran zərərli cəhdlərə zərbə vuraraq, inqilabi əhvali-ruhiyyəli qəhrəmanlarının xarakterlərindəki müasir keyfiyyətləri yeni bədii vasitələrlə vermişdir.

S.S.Axundovun Azərbaycan dramaturgiyası tarixində novatorluğu ondadır ki, o, zamanın yeni tələblərini, yeni inqilabi məsələlərini 1921-ci ilin aprelində yazıb qurtardığı "Laçın yuvası" dramında və bir sıra başqa pyeslərində göstərə bilmişdi. Sovet dövrü Azərbaycan ədəbiyyatında ilk nümunəsini "Laçın yuvası"nda görürük. Yazıçı bu əsərində dramaturgiyamıza qəhrəmanlıq pafosu, xalq mənafeyini hər şeydən üstün tutan Cahangir kimi bir surət gətirmişdir. Akademik M.Arif "Laçın yuvası" haqqında yazır ki, bu dram, eyni zamanda, ədəbiyyatımızın böyük bir qələbəsi idi. Əsərdə inqilabi qüvvələrin əksinqilabçılarla apardığı mübarizə barışmaz toqquşmalarda təzahür edir. Mülkədar Əmiraslan ağa ilə Cahangirin mübarizəsi daban-dabana zidd olan ideyaların çarpışmasıdır. Yeniliklə köhnəliyin, sosialist şüuru ilə bəy, mülkədar şüurunun mübarizəsi əsərdə əsas konflikt kimi sakitləşməyən, hadisədən-hadisəyə gərginləşən situasiyalarda verilir. Belə barışmaz konflikti dramaturgiyamıza gətirməklə Süleyman Sani böyük bir sənətkarlıq istedadı nümayiş etdirmişdir.

Süleyman Sani Axundov ictimai inkişafın, xalqın xoşbəxtliyinin təkamüldə deyil, inqilabi çevrilişdə olduğunu "Laçın yuvası" dramının ideya məzmununda əks etdirmişdir. Yazıçının sovet dövrü yaradıcılığındakı realizmi şərtləndirən keyfiyyətlərdən biri də keçmişə bu günün nailiyyətləri səviyyəsindən baxması idi.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra 20-ci illərdə Bakıda "Dövlət Dram teatrı" , "Tənqid-təbliğ teatrı", "Rus Dram teatrı" fəaliyyətə başladı. S.S.Axundov "Laçın yuvası" əsərində siyasi, inqilabi bir mövzunu müasirləri olan N. Vəzirov, Ə.Haqverdiyev və başqa drammaturqlardan əvvəl qələmə alması ədəbiyyatımızın inqilabi ənənələri ilə və bir sıra başqa mənbələrlə bağlı idi. S. Saninin hələ inqilabdan əvvəldə xalq mənafeyi ilə sıx bağlı olması belə bir dramın yaranmasında müəyyən rolu vardır.

Dramda ata və oğul xətti əsas konflikt kimi qələmə alınmışdır. "Laçın yuvası" dramının qəhrəmanı Cahangirin real, bədii obraz kimi qüvvətli çıxması, qismən S. Saninin 1920-ci ildə Qarabağ əksinqilabçılarına qarşı mübarizədə Çingiz İldırımın, Hüsü Hacıyevin və Dadaş Bünyadzadənin şəxsində kommunist xarakterinin tipik xüsusiyyətlərini müşahidə etməsinin nəticəsi idi.

S.Sani bu əsəri ilə Azərbaycan sovet drammaturgiyasına bir sıra mühüm yeniliklər gətirmişdir. Həmin yeniliyin birində budur ki, S.Sani, XI Qızıl ordunun Azərbaycan zəhmətkeşlərini xan-bəy-mülkədar ağalığından xilas etməklə, Azərbaycanda sovet hakimiyyətinin qalib gəlməsində həlledici rol oynadığını ilk dəfə əks etdirmişdir.

Əsərin baş qəhrəmanlarından biri də Cahangirdir. Azərbaycan ədəbiyyatının klassik əsərlərindəki Fəxrəddin, İsgəndər, Aydın, Elxan və başqa gənclərdən fərqli olaraq Cahangirin aydın, konkret inqilabi fikri xətt hərəkəti vardır. Sinfi düşmənlərinə qarşı vuruşmada qalib gələcəyinə inamı, ətrafında baş verən sinfi ziddiyyətlərdən baş çıxarması, sevgilisi ilə inqilabi məsələlər ətrafında etdiyi fikir mübadiləsi onu nəzərimizdə böyüdür.



Pəricahan xanım, sevgilisi Cahangirin bolşevik əqidəsini hələlik dərk edə bilmir. Buna görə "bolşevik tərəfinə keçmiş" Hadı Lələsini, Cahangiri rədd edir. Cahangirin öz fərdi sevgi hisslərini fəal iştirak etdiyi azadlıq hərəkatı və xalq mənafeyi ilə vəhdətdə bəyan etməsi qəhrəmanın yeni keyfiyyəti idi. Cahangir sevgilisi ilə qarşılaşarkən drammaturq onun qəlbindəki vətənə, xalqa məhəbbətini qabaqcıl sovet məfkurəsi səviyyəsindən işıqlandırır. Məhz buna görə Cahangirin məhəbbəti klassik drammaturgiyamızdakı sevgi motivindən fərqlənərək, əsil inqilabçının estetik idealına xidmət edən qüvvə kimi səslənir.

Pəricahan xanımla Cahangirin mübahizəsində dərin drammatizm var. Burada sevib-sevilən, lakin daban-dabana zidd ideya cəbhəsində dayanan iki gəncin fikir toqquşmasının canlı şahidi oluruq. Aydın olur ki, bir-birinə qarşı duran bu iki qüvvənin arxasında müəyyən ictimai zümrə dayanmışdır. İki sevgilinin belə canlı, üsyankar ruhlu fikir mübahizəsi drammaturgiyamızda yeni hadisə idi.

Əksinqilabi qüvvələrə başçılıq edən Əmiraslan ağa surəti drammaturq tərəfindən dolğun işlənmişdir. Əmiraslan ağa sovet hökumətinin düşmənidir. Drammatur Əmiraslan ağanın mənəvi süqutunu göstərmədən əvvəl onun intellektual aləmini, sinfi, mənsubiyyətini və psixologiyasını açır. Əmiraslan ağada vətənpərvərlikdən belə əsər əlamət yoxdur. O, şəxsi mənafe hissi ilə yaşayır, şəxsi rahatlığının qeydinə qalır, övladlarını da özü kimi görmək istəyir. Başqa pyeslərində olduğu kimi, burada da ədib, mənfi tipin çürük əqidəsini tipin öz sözləri ilə ifşa edir.

Drammaturq, Əmiraslan ağanın simasında müstəbid, hiyləgər, avanturaçı, zorakı mülkədarın tipik cizgilərini cəmləşdirmişdir. O, bolşeviklərin xalq arasında nüfuzunu qırmaq üçün hər gün çirkin vasitələrə əl atır. Əmiraslan ağanın səciyyəsində təcəssüm edən əsas ehtiras - xüsusi mülkiyyətini müdafiə etmək, hakimiyyətini saxlamaq istəməsidir.

"Laçın yuvası" dramında diqqəti cəlb edən surətlərdən biri də Hadı Lələdir. Yazıçı Hadı Lələnin simasında həyat təcrübəsi olan, xeyirxah, mürəbbi sürətini yaratmışdır. Onun Cahangirin axtarıb tapması və bolşevizm ideyaları ilə tanış olub, haqq və ədalətin Cahangirin tərəfində olduğunu yəqin edib, bolşeviklər tərəfinə keçməsi sovet hakimiyyətinin Hadı Lələlərə dost münasibət bəsləməsi, onlara öz hüquqlarını dərk etmək üçün yaratdığı şəraitlə əlaqədar idi. Əsərin əvvəlindən oğul həsrəti ilə yanan Gövhərxanımın Cahangiri görmədən ölməsi dramın ən təsirli yerlərindəndi.

"Laçın yuvası" Azərbaycanda Sovet hakimiyyətinin qəti qələbəsi uğrunda gedən tarixi vuruşmaların bədii əksini verən inqilabi qəhrəmanlıq dramıdır. Əsərdə müəllif , inqilabın qalib gəlməsində geniş xalq kütlələrinin rolunu, inqilabi cəbhənin ilham aldığı mərkəzi qüvvənin -Bakı və Rusiyanı da ayrı-ayrı səhnələrdə, mükaliməlrdə canlandırmağa çalışmışdır. "Laçın yuvası" dramı təkcə dövrün mühüm məsələsinə toxunması ilə deyil, bədii-sənətkarlıq cəhətincə də əhəmiyyətli xüsusiyyətlərə malikdir. Laçın yuvasının dili sadə, aydın və emosionaldır.

"Laçın yuvası" nda Əmiraslan ağanın intiharı, Cahangirin ailəsinin başına gələn faciə, Cahangir üçün bir növ nikbin faciə xarakteri daşıyır ki, bu da əsərin mövzusu ilə əlaqədar olaraq Süleyman Saninin dramaturgiyamıza gətirdiyi yeni keyfiyyət idi. Dramın finalında yeniliyin köhnəliyə qalib gəlməsi əsərə nikbinlik, qəhrəmanlıq ruhu aşılayır. Bununla da Cahangirin ailə tragizmi kölgədə qalır. Bu tragizm yeniliyə zidd olan qüvvələrin faciəsinə çevrilir.

"Laçın yuvası" kamil ideya-bədii xüsusiyyətləri ilə seçilən sovet dövrünün ilk Azərbaycan dramıdır. Sovet hakimiyyətinin qurulmasının ildönümü münasibəti ilə pyes yazmaq üçün elan edilən dövlət müsabiqəsində bu əsər birinci mükafata layiq görülmüşdür. Sovet hakimiyyəti illərində yazmış olduğu əsərləri və apardığı mühüm ictimai işləri S.S. Axundova şərəfli sovet yazıçısı adını qazandırmışdır.

*Sevinc MUXTAROVA,*
*Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu Qərbi Azərbaycan və Qarabağ əlyazmalarının tədqiqi şöbəsi*